# Azərbaycanın qlobal layihələri xalqların rifahına xidmət edir



***Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında, müsahibələrində Azərbaycanın hər zaman xarici ölkələrlə səmərəli əməkdaşlığa üstünlük verdiyini və bunun müsbət nəticələrlə müşahidə edildiyini diqqətə çatdırıb, həmçinin respublikamızın müxtəlif vaxtlarda yaxın-uzaq ölkələrə imkan daxilində kömək göstərdiyini də vurğulayıb. Dövlətimizin başçısı bu barədə deyib: "Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu əsasda qazanılıb. Azərbaycan xarici siyasətdə qarşılıqlı dəstəyi sözdə yox, əməldə, həmrəylikdə nümayiş etdirib".***

Azərbaycanda son 18 ildə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Başqa sözlə, avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda, habelə regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr respublikamızın nəqliyyat infrastrukturunun müasirləşməsində əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu da region üçün strateji əhəmiyyətə malikdir, konteyner daşımaları, Avrasiyaboyu multimodal nəqliyyatın həcminin artırılması və Asiyadan Avropaya istiqamətlənən karqo axınları üçün rəqabətqabiliyyətli bağlantını təmin edir. Asiya və Avropa arasında ən qısa marşrutu reallaşdırmaqla BTQ dəmir yolu bağlantısı gələcəkdə bir neçə milyon ton karqo daşınmasının reallaşdırılması məqsədi daşıyır.

Qlobal layihələr sırasında Cənub Qaz Dəhlizi xüsusi önəm daşıyır. Bu dəhliz inşa olunmadan investor bura və heç bir digər layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki istər "Abşeron", "Qarabağ", istərsə də digər yataqlardan çıxarılacaq qazın ixracı üçün yol olmalıdır. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyəti təkcə "Şahdəniz" layihəsi ilə məhdudlaşmır. Bu layihə gerçəkləşdirilmədən Azərbaycanın enerji siyasəti yarımçıq qala bilərdi. Amma bu gün respublikanın enerji siyasəti ölkəmizin maraqlarını tam təmin edir. Məsələn, "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcək.

Onu da qeyd edək ki, indiyədək həyata keçirilən layihələr çərçivəsində Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi nəinki Azərbaycanın və Türkiyənin, hətta digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayıb.

Azərbaycanın dünyada qlobal təşəbbüslər ölkəsi kimi tanınmasından bəhs edərkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin hazırda COVID-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəkləyir.

Onu da deyək ki, pandemiyanın yayıldığı ilk vaxtlardan etibarən dövlətimizin başçısı beynəlxalq səviyyədə COVID-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizə təşəbbüsləri ilə çıxış etdi. Ötən il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə dövlətimizin başçısı bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayaraq, Azərbaycan tərəfindən, eləcə də Qoşulmama Hərəkatı adından peyvəndlərə universal çıxışın reallaşdırılması ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini bildirdi.

Həmin il noyabrın 18-də BMT Baş Assambleyasının 3-cü komitəsində (insan hüquqları və humanitar) sözügedən qətnamə layihəsi müzakirə olundu və səsvermə ilə qəbul edildi, dekabr ayında isə BMT Baş Assambleyasının plenar sessiyasında öz təsdiqini tapdı.

Bu, Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin birləşdirilməsi sahəsində qlobal liderliyini uğurla davam etdirdiyini göstərdi. Bu, eyni zamanda, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən biri olmasının təsdiqi kimi diqqət çəkdi.

Bu məqamda onu da qeyd edək ki, həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardım göstərib. Bununla yanaşı, respublikamız 5 ölkəyə peyvənd ianəsini gerçəkləşdirib və gələcəkdə də bu işin davam etdiriləcəyi nəzərdə tutulub.

Hazırda Azərbaycan Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesini həyata keçirir.

Azərbaycan, eyni zamanda, beynəlxalq qurumların xalqların rifahına yönələn təşəbbüslərini də dəstəkləyir, bununla bağlı layihələrin icrasında fəal iştirak edir. Məsələn, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılması istiqamətində görülən işlər nəticəsində 2021-ci ildə 2020-ci ilə nisbətən ümumi daxili məhsulun real ifadədə 5,6 faiz, qeyri-neft sektorunun 7,2 faiz artması, ümumilikdə isə pandemiya səbəbindən səngiyən iqtisadi fəallığın 2021-ci ildə bərpası bunun bariz ifadəsidir.

Onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda Azərbaycanın yaratdığı yeni geosiyasi reallıq formalaşmağa başladı. Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq, Ermənistanın 30 illik işğalına son qoyduğunu, müharibə yolu ilə ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini bildirdi.

Hələ İkinci Qarabağ müharibəsinin gedişində dövlətimizin başçısı postkonflikt dövründə Cənubi Qafqazın siyasi arxitekturasını şərh edərkən, gələcəkdə bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin yaradılmasının vacibliyini vurğuladı. Bu, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda da öz ifadəsini tapdı. Belə ki, həmin bəyanat ərazilərin işğaldan azad edilən bölgədə yeni siyasi reallığın yaradılmasını şərtləndirdi, regionun tranzit-logistika potensialının inkişafını qarşıya mühüm vəzifə kimi qoydu. Başqa sözlə, bu bəyanat regionda mövcud potensialın gerçəkləşdirilməsi üçün yeni nəqliyyat marşrutlarının fəaliyyətə başlamasına zəmin hazırladı.

Həmin vaxtdan etibarən bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Bütün bunlar deməyə əsas verir ki, Zəngəzur dəhlizinin gerçəkləşməsi və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri də dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşruta çevriləcək.

Vətən müharibəsinin nəticəsi göstərdi ki, Azərbaycanda həyata keçirilən siyasi kurs dövlətimizi və xalqımızı qələbələrə aparan alternativsiz yoldur. Qarşıda isə xalqımızı Qarabağın və Şərqi Zəngəzurun sürətlə bərpası ilə keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarının yaşadıqları sevincli günlər, Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından fayda əldə edəcək ölkələrin Azərbaycana minnətdarlıq ünvanlayacaq zamanı gözləyir.

Bu layihə həm Ermənistanın, həm də Azərbaycanın, eləcə də bütün region dövlətlərinin mənafeyinə xidmət etməsinə, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinə qovuşmaqla beynəlxalq infrastruktura inteqrasiya olunmasına, böyük həcmdə yük və sərnişindaşıma imkanlarının gerçəkləşdirilməsinə hesablanıb. Azərbaycan ötən müddətdə bu istiqamətdə üzərinə düşən vəzifələri yüksək səviyyədə həyata keçirib. Zəngəzur dəhlizinin bir parçası olan və ötən il fevralın 14-də Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşması nəzərdə tutulan layihələrdən birinin – Horadiz–Zəngilan–Ağbənd dəmir yolu xəttinin təməlini qoyub, bununla da Azərbaycan 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarına sadiqliyini bir daha göstərib. Bu dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq 70 faizdən çox hissəsi başa çatıb. Ermənistan isə sözügedən təşəbbüsün gerçəkləşməsi-nəqliyyat və enerji xətlərinin texniki əsaslandırılmasının hazırlanması, layihənin icrasına başlanılması ilə bağlı fəaliyyətsizlik göstərib. Keçən ilyarım ərzində layihənin reallaşmasına ancaq maneələr yaradıb, müxtəlif bəhanələrlə, qəsdən onu əngəlləməyə çalışıb. Başqa sözlə, Ermənistan bununla bağlı üzərinə götürdüyü öhdəliklərə demək olar ki, əməl etməyib. Eyni zamanda, işğalçı ölkə hər zaman buna ciddi ehtiyacı olduğunu bildirib. Başqa sözlə, iqtisadi cəhətdən ciddi problemlər yaşamasını guya Azərbaycan tərəfindən yaradılan nəqliyyat blokadası ilə əlaqələndirib. Lakin Ermənistanın ötən ilyarım ərzində Zəngəzur dəhlizinin açılmasına maneələr yaratması, layihəni müxtəlif bəhanələrlə, qəsdən əngəlləməyə çalışması isə onun məkrli niyyətini açıq-aydın göstərib.

Əslində işğalçı dövlət 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulan məlum bəndin icrasının-nəqliyyat bağlantısının yalnız onun ərazisindən və onun icazəsi ilə yaradıla biləcəyini zənn edir və bu amildən ölkəmizə qarşı təsir vasitəsi kimi yararlanmağı, özündən asılı vəziyyətdə saxlamağı düşünürdü. Ancaq yeni geosiyasi gerçəklik Ermənistanın bütün bu cəhdlərinin əbəs olduğunu nümayiş etdirdi. İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumunun imzalanması da bu reallığı aydın göstərdi.

Yeri gəlmişkən, hazırda Ermənistan ictimaiyyəti bu məsələnin uğursuzluğunda baş nazir Nikol Paşinyanı günahlandırır. Erməni siyasi ekspert Armen Qeqamyan ölkəsinin ilyarım ərzində Zəngəzur dəhlizinin açılmasının iqtisadi inkişafa müsbət təsir göstərəcəyini, böhranın təsirlərini azaldacağını yaxşı anladığına baxmayaraq, layihəni məqsədli şəkildə əngəllədiyini bildirir: "İqtisadi baxımdan regionda problemlərin həlli yolları göz qabağında olsa da, siyasi intriqalar bu məsələləri həll etməyə imkan vermədi. İqtisadi baxımdan Zəngəzur dəhlizi Ermənistana lazımdır. Dəhliz investisiyaların cəlb olunması, yeni iş yerlərinin açılması, sənaye müəssisələrinin bərpası üçün onlara imkan yaradardı. Xüsusilə də Ermənistanın regional iqtisadiyyata inteqrasiyasına kömək edərdi. Azərbaycan lideri İlham Əliyev də dedi ki, artıq bu qədər vaxt verdik yetər, Zəngəzur dəhlizi bizə maraqlı deyil, alternativ yollar tapırıq".

Erməni ekspert Ruben Safrasyan bildirir ki, kommunikasiyaların açılması, sərhədlərin müəyyən edilməsi ölkəsinin düşdüyü blokada vəziyyətindən xilası olardı: "Azərbaycanla İran arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu Paşinyan hakimiyyətinin növbəti məğlubiyyəti sayıla bilər. Halbuki Zəngəzur dəhlizi bütün tərəflərin milli maraqlarına tam cavab verirdi. Zəngəzur dəhlizi Ermənistanın xilası ola bilərdi. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcəkdi…".

Qeyd edək ki, Ermənistan müharibədən qalib çıxan Azərbaycanın bölgədə söz sahibi olduğunu, vədi ilə əməlinə daim sahib çıxdığını yaxşı başa düşür. Hazırda Qarabağ və Şərqi Zəngəzurda sürətlə aparılan genişmiqyaslı bərpa quruculuq işləri də bunu deməyə əsas verir. Beynəlxalq aləm də birmənalı şəkildə Azərbaycanın öz sərhədlərinin ədalətli şəkildə müəyyənləşdirilməsi, özgə torpağına göz dikməməsi mövqeyində olduğunu dərk edir. Ona görə də Azərbaycan sülh sazişini beynəlxalq hüquqda nəzərdə tutulan maraqları çərçivəsində imzalanmasına maraqlıdır.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**